AFFA

AZƏRBAYCAN

V

АБФФ

BELARUS

25.03.2025 | 21:45
Bank Respublika Arena

# YOLDAŞLIQ OYUNU

# OYUN PROQRAMI

SOCAR
Bank Respublika
XIRDALAN 0.0
PAŞA Sığorta
AZAL
DANILOV BAKU
AQUAVITA
MƏLHƏM BEYNƏLXALQ HOSPİTAL
misli
BONA DEA
MARIO RUSSO

SOCAR



# BU BURAXILIŞDA

4
BELARUS MİLLİ KOMANDASI





23
ARALARINDAKI OYUNLAR HAQQINDA MƏLUMAT

36
AZƏRBAYCAN MİLLİ KOMANDASI



6 BELARUS MİLLİ KOMANDASININ BAŞ MƏŞQÇİSİ
Karlos Alos 2023-cü ilin avqustunda Belarus millisinin "sükanı arxası"na ...

10 BELARUSDA FUTBOLUN YARANDIĞI İL
Belarusda futbol 1910-cu ildə yaradılıb. Lakin ölkə 1922-ci ildən 1991-ci ilə qədər ...

28 MAHİR EMRELİNİN MÜSAHİBƏSİ
"Ümid edirəm ki, millidə belə qollar daha çox vuraram"

32 STADİON HAQQINDA
Belarus yığması ilə oyun millimizin "Bank Respublika Arena"da ilk matçı olacaq. Bu stadion ...

42 AZƏRBAYCANDA FUTBOLUN YARANDIĞI İL
Azərbaycanda ilk futbol komandaları 1905-ci ildə ...

**Şəkillər:** AFFA-nın fotobazası, "Google Photos", gettyimages.com

## BİZ **BİRLİKDƏ** GÜCLÜYÜK!

AZƏRBAYCAN, BAKI AZ 1025,
8 NOYABR PROSPEKTI, 163

Tel: +99412 404 2777
Faks: +99412 404 2772

info@affa.az
www.affa.az

Belarus national team

# BELARUS MİLLİ KOMANDASI



# KARLOS ALOS

Karlos Alos 2023-cü ilin avqustunda Belarus millisinin "sükanı arxası"na keçib. İspaniyalı mütəxəssis buna qədər Honkonq, Polşa, Qazaxıstan, Marokeş, Qatar, Kipr və Ruanda kimi ölkələrdə də çalışıb. 2003-cü ildən məşqçiliklə məşğul olan 49 yaşlı mütəxəssis son olaraq 2022-2023-cü illərdə Ruanda millisinə rəhbərlik edib.

Belarus yığması Alosun başçılığı altında ümumilikdə 16 oyun keçirib. Bunun yalnız 3-də qələbə qazanan komanda 8 heç-heçə edib, 5 dəfə məğlub olub. Belaruslular AVRO-2024-ün seçmə mərhələsində Andorra və Kosovonu, UEFA Millətlər Liqasının 2024-2025 mövsümündə isə Lüksemburqu 1:0 hesabı ilə məğlub edib. Komanda geridə qalan 16 qarşılaşmada ümumilikdə 8 qol vurub, 18 dəfə özü mərkəzə dəvət edilib.





# CARLOS ALOS

Carlos Alos took over the Belarusian national team in August 2023. The Spanish specialist has previously worked in countries such as Hong Kong, Poland, Kazakhstan, Morocco, Qatar, Cyprus and Rwanda. The 49-year-old specialist, who has been coaching since 2003, most recently led the Rwanda national team in 2022-2023. The Belarusian national team has played a total of 16 matches under the leadership of Alos. The team won only 3 of them, drew 8 and lost 5 times. The Belarusian team defeated Andorra and Kosovo in the EURO 2024 qualifying round, and Luxembourg in the 2024-2025 UEFA Nations League season with a score of 1:0. The team scored a total of 8 goals in the remaining 16 matches and was invited to the center 18 times.



АБФФ



Carlos Alos took over the Belarusian national team in August 2023

AUG20
23UST

# BELARUS MİLLİSİNİN HEYƏTİ

**QAPIÇILAR/GOALKEEPERS**

*Pavel Pavlyuçenko*
*Fyodor Lapouxov*
*Maksim Belov*

**MÜDAFİƏÇİLƏR/DEFENDERS**

*Sergey Politeviç*
*Kirill Peçenin*
*Yuri Kovalev*
*Pavel Zabelin*
*Aleksey Qavriloviç*
*Vadim Piqas*
*Yeqor Parxomenko*
*Dmitri Prişela*
*Maksim Kasarab*

**YARIMMÜDAFİƏÇİLƏR/MIDFIELDERS**

*Maks Ebonq*
*Yevgeni Yablonski*
*Valeri Qromko*
*Valeri Boçerov*
*Artyom Kontsevoy*
*Pavel Sedko*
*Nikita Demçenko*
*Kirill Zinoviç*

**HÜCUMÇULAR/FORWARDS**

*Vitali Lisakoviç*
*German Barkovski*
*Trofim Melniçenko*
*Artyom Şumanski*




**Belarus national team squad**



Bank
Respublika

# BELARUSDA FUTBOLUN YARANDIĞI İL

## *History of football in Belarus*






Belarusda futbol 1910-cu ildə yaradılıb. Lakin ölkə 1922-ci ildən 1991-ci ilə qədər Sovet İttifaqının tərkibində olub. Minsk "Dinamo"su 1982-ci ildə SSRİ çempionluğunu qazanıb. Belarus Futbol Federasiyası 1989-cu ildən fəaliyyətə başlayıb. Ölkə müstəqillik əldə etdikdən bir il sonra – 1992-ci ildə FIFA-ya, 1993-cü ildə isə UEFA-ya üzv olub.
2022-ci ildə Rusiya ilə Ukrayna arasında başlayan siyasi insidentdən sonra FIFA və UEFA Belarus millisinin, eləcə də, klublarının beynəlxalq yarışlarda ev oyunlarını neytral ölkədə keçirməsini qərara alıb.

Football in Belarus was founded in 1910. However, the country was part of the Soviet Union from 1922 to 1991. "Dinamo" of Minsk won the USSR championship in 1982. The Belarusian Football Federation began operating in 1989. The country became a member of FIFA in 1992, a year after gaining independence, and UEFA in 1993.
Following the political incident that began between Russia and Ukraine in 2022, FIFA and UEFA decided that the Belarusian national team, as well as its clubs, would play their home games in international competitions in a neutral country.

# BELARUS MİLLİSİNİN REKORDÇULARI

Player records of the Belarus national team

Belarus yığmasının ilk beynəlxalq oyunu 1992-ci ildə Litva seçməsinə qarşı olub. Vilnüsdə keçirilən görüşdə 1:1 hesablı heç-heçə qeydə alınıb. Belarus millisinin ən böyükhesablı qələbəsi 5 top fərqi ilə olub. Komanda üç dəfə bunu bacarıb. 1998-ci ildə Litva, 2018-ci ildə isə San Marino seçməsinin qapısından 5 cavabsız top keçirən belaruslular 2014-cü ildə Tacikistan yığmasını 6:1 hesabı ilə məğlub edib. Belarus millisi tarixinin ən böyükhesablı məğlubiyyətini Belçikadan alıb. Komanda 2021-ci ildə səfər görüşündə 0:8 hesablı məğlubiyyətə düçar olub.

The first international match of the Belarusian national team was against the Lithuanian team in 1992. The match in Vilnius ended in a 1:1 draw. The largest victory of the Belarusian national team was by a 5-goal margin. The team has managed to do this three times. The Belarusians, who scored 5 unanswered goals against Lithuania in 1998 and San Marino in 2018, defeated the Tajikistan national team with a score of 6:1 in 2014. The Belarusian national team suffered the largest defeat in its history against Belgium. The team faced a 0:8 defeat in an away match in 2021.




## ƏN ÇOX OYUN KEÇİRƏN 5 FUTBOLÇU / *5 MOST APPEARANCES*



**ALEKSANDR KULÇİ**
102 oyun/games
1996-2012



**SERGEY QURENKO**
80 oyun/games
1994-2006



**ALEKSANDR QLEB**
80 oyun/games
2001-2019



**ALEKSANDR MARTİNOVİÇ**
80 oyun/games
2009-...



**SERGEY KORNİLENKO**
78 oyun/games
2003-2016

## ƏN ÇOX QOL VURAN 5 FUTBOLÇU / *5 TOP SCORERS*



**MAKSİM ROMAŞENKO**
20 qol/goals
1998-2008



**SERGEY KORNİLENKO**
17 qol/goals
2003-2016



**VİTALİ KUTUZOV**
13 qol/goals
2002-2011



**VYAÇESLAV QLEB**
12 qol/goals
2004-2011



**STANİSLAV DRAQUN**
11 qol/goals
2011-2020




# BELARUS MİLLİSİNİN BEYNƏLXALQ YARIŞLARDA UĞURLARI

## SUCCESSES OF THE ESTONIA NATIONAL TEAM DURING THE INTERNATIONAL COMPETITIONS




The Belarusian national team, founded in 1992, played its first match recognized by FIFA in October of that year. A friendly match against Ukraine in Minsk ended in a 1:1 draw. It took two years for the Belarusians to experience the joy of their first victory. The team defeated Luxembourg with a score of 2:0 in Minsk in 1994 as part of the qualifying round for EURO 1996. The Belarusian national team has never been qualified for the World Cup or the European Championship. However, it came very close to participating in the 2002 World Cup. At that time, a defeat to Wales (0:1) in the final round of the qualifying round prevented the team from ending up the second in the group.

# 1994

## EUROPEAN QUALIFIERS

Belarus

Group 5 | **Wed, Oct 12, 1994** | 4:30 AM

2:0 (0:0)

**Dinamo** | **Attendance: 6.600**
**Referee: Richard O'Hanlon**

Luxembourg

# 1992-ci

ilda yaradılan Belarus millisi FIFA tarafindan tanınan ilk matçını hamin ilin oktyabrında keçirib. Minskda Ukrayna yığması ila keçirilan yoldaşlıq görüşü 1:1 hesabı ila yekunlaşıb. Beloruslular ilk qalaba sevincini yaşamaq üçün iki il gözlamali olublar. Komanda AVRO-1996-nın seçma marhalasi çarçivasinda 1994-cü ilda Lüksemburqu Minskda 2:0 hesabı ila mağlub edib. Belarus millisi heç vaxt dünya va Avropa çempionatına vasiqa qazanmayıb. Halbuki DÇ-2002-da iştirak etmaya çox yaxın olub. Hamin vaxt seçma marhalanin son turunda Uelsa mağlubiyyat (0:1) komandanın qrupu ikinci pillada başa vurmasına mane olub.

*Uels - Belarus. Dünya Çempionatının seçma marhalasi, 6 Oktyabr 2001*

*1-0*



# BELARUS MİLLİSİNİN

## SON 5 YOLDAŞLIQ OYUNU

**Last 5 friendly matches of the Belarusian national team**

1


20.11.2022
Oman – Belarus – 2:0
[Əl-Əyn, Birləşmiş Ərəb Əmirlikləri]

2


21.03.2024
Monteneqro – Belarus – 2:0
[Antalya, Türkiyə]

3


26.03.2024
Malta – Belarus – 0:0
[Ta Qali, Malta]

4


07.06.2024
Belarus - Rusiya - 0:4
[Minsk, Belarus]

5


11.06.2024
Belarus - İsrail - 0:4
[Budapeşt, Macarıstan]

## RƏSMİ

## SON 5 OYUNU

**The last 5 official games of the Estonia national team**

1


08.09.2024, UEFA Millətlər Liqası
Lüksemburq – Belarus - 0:1
[Lüksemburq, Lüksemburq]

2


12.10.2024, UEFA Millətlər Liqası
Belarus – Şimali İrlandiya - 0:0
[Zalaegerseq, Macarıstan]

3


15.10.2024, UEFA Millətlər Liqası
Belarus - Lüksemburq - 1:1
[Zalaegerseq, Macarıstan]

4


15.11.2024, UEFA Millətlər Liqası
Şimali İrlandiya – Belarus - 2:0
[Belfast, Şimali İrlandiya]

5


18.11.2024, UEFA Millətlər Liqası
Bolqarıstan - Belarus - 1:1
[Plovdiv, Bolqarıstan]



OYUN PROQRAMI
MATCHDAY PROGRAMME
18

FIFA

**HAZIRKI MÖVQEYİ:** *98-Cİ YER*
**ƏN YAXŞI MÖVQEYİ:** *36-CI YER (FEVRAL 2011-Cİ İL)*
**ƏN ZƏİF MÖVQEYİ:** *142-Cİ YER (MART 1994-CÜ İL)*

**CURRENT POSITION:** *98TH PLACE*
**BEST POSITION:** *36TH PLACE (FEBRUARY 2011)*
**LOWEST POSITION:** *142ND PLACE (MARCH 1994)*

# MİLLİNİN FIFA REYTİNQİ
# FIFA RANKING OF THE NATIONAL TEAM

| | | | | | |
|---|---|---|---|---|---|
| 95 | Suriya/Syria | 1249.47 | 1249.47 | - | |
| 96 | Mozambik/Mozambique | 1232.7 | 1232.7 | - | |
| 97 | Tailand/Thailand | 1231.17 | 1228.24 | +2.93 | W W |
| **98** | **BELARUS** | **1226.31** | **1226.31** | **-** | |
| 99 | Kosovo/Kosovo | 1219.82 | 1219.82 | - | |
| 100 | Ermənistan/Armenia | 1219.15 | 1219.15 | - | |
| 101 | Fələstin/Palestine | 1215.87 | 1215.87 | - | |

INSIDE FIFA



misli

MƏLHƏM
BEYNƏLXALQ HOSPİTAL




MƏLHƏMLƏ SAĞLAM YAŞA!

C.Naxçıvanski küç. 433 Bakı, 1099
803 / (+994) 51 201 71 01
melhemhospital.com

AFFA

# ARALARINDAKI OYUNLAR HAQQINDA MƏLUMAT

# INFORMATION ABOUT THE MATCHES HELD BETWEEN THE TEAMS

АБФФ

# OYUNLAR
## GAMES

Azərbaycan və Belarus milli komandaları indiyə qədər 6 dəfə qarşılaşıblar. Bunun ilk 4-ü yoldaşlıq görüşlərinə təsadüf edib. Belaruslularla ilk rəsmi duel 2022-ci ildə UEFA Millətlər Liqası çərçivəsində olub. Səfərdə qolsuz bərabərə qalan millimiz "Liv Bona Dea Arena"da 2:0 hesablı qələbə qazanıb.

Baş tutan 6 matçın statistikasına nəzər yetirsək, millimizin üstünlüyə malik olduğunu görərik. Hesabında 3 qələbə olan komandamız 2 dəfə heç-heçə edib və yalnız 1 dəfə uduzub. Belaruslular son 3 qarşılaşmada qələbə qazana bilməyiblər. Millimiz 3-cü dəfə bu rəqibini doğma məkanda qəbul edəcək.

The national teams of Azerbaijan and Belarus have met 6 times so far. The first 4 of these games were friendly matches. The first official match against Belarus took place in 2022 within the UEFA Nations League. Azerbaijan won 2-0 at "Liv Bona Dea Arena" after a goalless draw away match.

If we look at the statistics of the played 6 matches, we will see that Azerbaijan has an advantage. The Azerbaijan A-team has 3 wins, 2 draws, and only 1 loss. Belarusians did not





### 1 Yoldaşlıq görüşlari / Friendly matches

•27.05.1996 Belarus – Azərbaycan - 2:2 [Molodeçno, Belarus]
Qurban Qurbanov - 53'
Ruslan İdiqov - 75'

Belarus vs Azerbaijan – 2-2 [Molodechno, Belarus]
Gurban Gurbanov - 53'
Ruslan Idigov - 75'

•26.02.2001 Belarus – Azərbaycan - 0:1 [Albena, Bolqarıstan]
Zaur Tağızadə - 9'

Belarus vs Azerbaijan – 0-1 [Albena, Bulgaria]
Zaur Taghizade - 9'

•23.03.2018 Azərbaycan - Belarus - 0:1 [Bakı, Azərbaycan]

Azerbaijan vs Belarus – 0-1 [Baku, Azerbaijan]

•02.06.2021 Belarus - Azərbaycan – 1:2 [Minsk, Belarus]
Bədavi Hüseynov - 73'
Ramil Şeydayev - 90'+1'

Belarus vs Azerbaijan – 1-2 [Minsk, Belarus]
Badavi Huseynov - 73'
Ramil Sheydayev- 90'+1'

### 2 UEFA Millətlər Liqası. 2022/2023 mövsümü / UEFA Nations League, 2022/2023 season

•06.06.2022 Belarus – Azərbaycan 0:0 [Novi Sad, Serbiya]

Belarus – Azərbaycan 0:0 [Novi Sad, Serbiya]

•13.06.2022 Azərbaycan – Belarus - 2:0 [Bakı, Azərbaycan]
Mahir Emreli - 76'
Ramil Şeydayev - 90'+3'

Azərbaycan – Belarus - 2:0 [Bakı, Azərbaycan]
Mahir Emreli - 76'
Ramil Şeydayev - 90'+3'

PAŞA
Sığorta
Rahatlığınıza Zəmanət

# MARAQLI FAKT
# INTERESTING FACT

Çox az sayda azərbaycanlı futbolçu Belarusda legioner həyatı yaşayıb. Əvəzində kifayət qədər belaruslu Azərbaycan çempionatında çıxış edib. İndiyə qədər ümumilikdə 25 belaruslu milli çempionatımızda mübarizə aparıb. Onlardan yalnız Sergey Pavlyukoviç Azərbaycan çempionluğunu qazanıb. O, 2006/2007 mövsümündə "Xəzər Lənkəran"ın heyətində qızıl medallara sahib olub.

Ölkəmizə ilk belaruslu futbolçuları "Qarabağ" gətirib. 1999/2000 mövsümündə Aleksandr Xomyakov və Dmitri Kondratyev Ağdam klubunun formasını geyiniblər. Hazırda çempionatımızda 2 belaruslu yer alır. Yeqor Boqomolski "Neftçi"nin, Yeqor Xvalko isə "Kəpəz"in uğurları üçün çalışır. Onlar 2022-ci ildən ölkəmizdədirlər.

Very few Azerbaijani players have pursued a career as legionnaires in Belarus. Conversely, some Belarusian players have participated in the Azerbaijan Championship. To date, a total of 25 Belarusians have competed in Azerbaijan's national championship. Among them, only Sergey Pavlyukovich has won the Azerbaijan Championship, achieving this feat with Khazar Lankaran FC during the 2006/2007 season.

Qarabag FC was the first club to bring Belarusian players to Azerbaijan. In the 1999/2000 season, Alexander Khomyakov and Dmitry Kondratyev played for the Aghdam club. Currently, two Belarusians are active in the Azerbaijan Championship: Yegor Bogomolsky, who is playing for Neftchi FC, and Yegor Khvalko, who represents Kapaz FC. Both players have been in Azerbaijan since 2022.


Sergey Pavlyukoviç
Xəzər Lənkəran FK


Aleksandr Xomyakov
Qarabağ FK


Yeqor Boqomolski
Neftçi PFK


Yeqor Xvalko
Kəpəz PFK



# MAHİR EMRELİ

## "Ümid edirəm ki, millidə belə qollar daha çox vuraram"

## "I hope to score more such goals in the squad of the national team"

**AZE Millimiz yoldaşlıq görüşündəki rəqibi Belarus yığması ilə sonuncu dəfə 2022-ci ilin iyun ayında qarşılaşıb. UEFA Millətlər Liqası çərçivəsində "Liv Bona Dea Arena"da baş tutan oyunda meydana sonradan daxil olan Mahir Emreli 1 qol və 1 məhsuldar ötürmə ilə komandamızın 2:0 hesablı qələbəsində önəmli pay sahibi olub.**

**Hazırda Almaniyada "Nürnberq" klubunun formasını geyinən 27 yaşlı hücumçu AFFA-nın mətbuat xidmətinin suallarını cavablandırıb. O, həm üç il əvvəlki matçı xatırlayıb, həm də millinin qarşıdakı oyunları barədə danışıb.**

**- Almaniyada işləriniz necə gedir? "Nürnberq"ə və II Bundesliqaya tam uyğunlaşa bilmisiniz?**

- Hər şey çox yaxşıdır. Mövsümün əvvəlindəki təlim-məşq toplanışında iştirak edə bilməmişdim. Amma qış hazırlığında kollektivlə birgə oldum. Bir-birimizə daha yaxşı uyğunlaşmaq imkanımız yarandı. Oyundan-oyuna artırmaq və komandama daha faydalı olmaq istəyirəm.

**- Baş məşqçi Miroslav Kloze öz dövrünün ən güclü hücumçularından biri olub. Ön xətt oyunçusu kimi, ondan öyrəndiyiniz hansısa xüsusiyyət var?**

- Onunla fərdi məşqlər də edirik. Müxtəlif məqamlara toxunur, təcrübəsini bizimlə bölüşür. Bunun da faydalarını oyunlarda görürük. Kloze ilə işləmək çox xoşdur. Hücumçuya xüsusi həzz verir, hər məşqdə, iclasda, fərdi söhbətdə baş məşqçidən nələrsə öyrənməyə çalışırıq.

**- II Bundesliqa daha əvvəl çıxış etdiyiniz liqalardan nə ilə fərqlənir?**

- Burada intensivlik, fiziki göstəricilər və rəqabət böyükdür. Polşa və Xorvatiyada olanda həmin ölkələrin çempion komandalarında çıxış edirdim. Rəqiblər istər-istəməz bizə qarşı qapanırdılar, oyuna dominantlıq edirdik. Amma burada digərindən aşkar üstün komanda yoxdur. Hər bir komanda öz oyununu göstərməyə çalışır və matçlarda kifayət qədər qol imkanı əldə edir. II Bundesliqada, xüsusən də, topsuz olduğun zaman nizam-intizama çox önəm verirlər. Bu da mənim üçün yeni haldır. Çünki əvvəlki klublarım çempionatın ən yaxşısı olduğundan, topsuz oyuna o qədər də fikir vermirdim. Burada taktiki sxemə, intizama ayaq uydurmalısan və məşqçinin xüsusən topsuz olduğun zaman verdiyi tapşırıqları yerinə yetirməlisən.

**- Polşa, Xorvatiya, Türkiyə və Almaniyada legioner həyatı yaşamısınız. Ölkə xaricində oynamaq necə hissdir, azərbaycanlı həmkarlarınıza nəyi tövsiyə edərdiniz?**

- Hər bir futbolçu üçün xeyirlisi nədirsə, o da olsun. Kiminsə legioner həyatı yaşamaq arzusu varsa, çəkinmədən bunu reallaşdırsın, düşünməsin ki, xaricdə mədəniyyət fərqlidir. Özlərini bu yöndə inkişaf etdirsinlər, ən önəmlisi inansınlar. Azərbaycan çempionatında yaxşı çıxış edən oyunçular var ki, orada özlərini daha rahat hiss edirlər. Ancaq xaricə getmək arzusu ilə yaşayan uşaqlar əllərinə belə fürsət düşən kimi, düşünmədən dəyərləndirsinlər. Ən azı özlərini yoxlasınlar. Sonra peşmanlıq çəkməsinlər ki, şans düşdü, istifadə etmədim. Ümid edirəm ki, futbolçularımız daha yaxşı klublarda çıxış edəcəklər.

**- Millimiz Belarus yığması ilə yoldaşlıq görüşü keçirəcək. Tanış rəqiblə növbəti duel nə kimi fayda verə bilər?**

- Millidə olduğum zaman oyunun rəsmi və ya yoldaşlıq görüşü xarakterli olması arasında fərq qoymuram. Düzdür, yoldaşlıq matçlarında bəzi taktiki sxemlər, oyunçular sınaqdan keçirilir. Buna baxmayaraq, özümüzü yaxşı tərəfdən göstərməyə çalışmalıyıq. Xüsusən də, Belarus kimi "dişimizə" görə olan komandalar önünə qələbə üçün çıxmaq vacibdir. Belə qarşılaşmaların necə fayda verəcəyini isə rəsmi oyunlarda görəcəyik. Ümid edirəm ki, həmin görüşlərdən maksimum yararlanar, xalqımız üçün yaxşı futbol nümayiş etdirər və onların üzünü güldürərik. Bütün istəyimiz sırf bu yöndədir. Əlbəttə ki, uğur qazandığın zaman tarixə düşürsən və biz də bunun üçün çalışırıq. Əlimizdən gələni edəcəyik.

**- 2022-ci ildə UEFA Millətlər Liqası çərçivəsində Belarus seçməsini Bakıda 2:0 hesabı ilə məğlub etdiyimiz qarşılaşmada qollardan birinin müəllifi olmusunuz. Həmin matçı necə xatırlayırsınız?**

- Həmin görüşü yaxşı xatırlayıram. İlk dəqiqələrdən ehtiyatda qaldığım üçün bir az əsəbi, narazı idim. Etik çərçivədə, futbolçunun hörmətsizlik etmədən bu cür narazılığı normaldır. Amma sonradan meydana daxil olaraq, bir qol vurdum və digər qolun məhsuldar ötürməsini verdim. Vurduğum qol gözəl alınmışdı. Ümid edirəm ki, millinin həyatında belə qollar daha çox vuraram. Həmin ana qədər 5 matç idi ki, nə qol vura, nə də qələbə qazana bilirdik. Belarusla qarşılaşmadan sonra yüksəlişə keçdik, ardıcıl 5 oyunda qələbə qazandıq.

**- Bu il DÇ-2026-nın seçmə mərhələsində mübarizə aparacağıq. Rəqiblərdən ikisi Ukrayna və İslandiya, digəri isə Millətlər Liqasının 1/4 final mərhələsinin Fransa – Xorvatiya cütünün qalibi olacaq. Bu qrupda nəyə ümid etmək olar?**

- Rəqiblərin gücü bəllidir. Belə komandalar önündə xəyal qurmağa ehtiyac yoxdur. Sadəcə, düzgün hazırlaşıb, meydana qələbə üçün çıxmalıyıq. Futbolda qalibiyyət də var, məğlubiyyət də. Ancaq bəzən necə uduzmağın da vacib olur. Elə olur ki, canını dişinə sıxıb mübarizə aparırsan, yaxşı oyun sərgiləyirsən, amma sonda məğlub olursan. Bu, haradasa bağışlana bilər. Bizdə insanların futbol anlayışı gündən-günə yaxşılaşır. Məsələn, Slovakiyaya məğlubiyyətə baxmayaraq, matçdan sonra pozitiv şərhlər yazılırdı. Rəqibləri təhlil edib, hər birinə qarşı doğru hazırlaşmalıyıq. Keyfiyyət fərqi də öz sözünü deyəcək. Düşünürəm ki, sensasiya edəcəyimiz matçlar olacaq. Hər oyuna çıxanda buna inanmaq və baş məşqçinin tapşırıqlarını doğru yerinə yetirmək lazımdır. Bunu bacarsaq, istənilən uğurlu nəticəyə ümid edə bilərik.

**ENG The last time our national team met its friendly opponent, the Belarus national team, was in June 2022. Mahir Emreli, who entered the field at the end of the match held at the Liv Bona Dea Arena as part of the UEFA Nations League, played an important role in our team's 2:0 victory, scoring 1 goal and making 1 fruitful pass. The 27-year-old striker, who currently plays for the German club "Nuremberg", answered questions from the AFFA press service. He recalled the match three years ago and spoke about the upcoming games of the national team.**

**- How are things in Germany? Have you managed to fully adapt to "Nuremberg" and the II Bundesliga?**

- Everything is very good. I was not able to attend the training camp at the beginning of the season. But I was with the team during winter training. We had the opportunity to adapt to each other better. I want to improve with each game and be more useful for my team.

**- Head coach Miroslav Klose was one of the strongest strikers of his time. What qualities have you adopted from him as a front line player?**

- We also conduct individual training with him. He touches on various topics and shares his experiences with us. We see the benefits of this in games. Working with Klose is a pleasure. This gives a striker a special pleasure, and we try to learn something from the head coach in every training session, meeting and personal conversation.

**- How is the 2. Bundesliga different from the leagues you played in before?**

- There's great intensity, physical performance and competition here. When I was in Poland and Croatia, I played for the championship teams of those countries. Our opponents inevitably came close to us, and we dominated the game. But there is no one team that is clearly superior to the other. Each team tries to show its game and has enough scoring chances in the matches. In the II Bundesliga, a lot of importance is attached to discipline, especially when you are without the ball. This is also new for me. Since my previous clubs were the best in the championship, I did not pay much attention to the game without the ball. Here you need to follow the tactical scheme, discipline and carry out the instructions of the coach, especially when you are without the ball.

**- You have lived the life of a legionnaire in Poland, Croatia, Turkey and Germany. What is it like to play abroad, and what advice would you give to your Azerbaijani colleagues?**

- Let it be what is best for each footballer. If someone wants to live the life of a legionnaire, he should do it without hesitation and not think that the culture is different abroad. Let them develop in this direction, and most importantly, let them believe. There are players who perform well in the Azerbaijan championship and feel more comfortable there. However, children who dream of going abroad should not hesitate to take advantage of this opportunity as soon as it presents itself. Let them at least test themselves. So that later they do not regret not taking advantage of this opportunity. I hope our players will play for the best clubs.

**- In March, our national team will play a friendly match against Belarus. What benefit could another duel with a familiar opponent bring?**

- When I am in the national team, I do not differentiate between an official match and a friendly match. Indeed, some tactical schemes and players are tested in friendly matches. However, we must try to present ourselves in a positive light. It is especially important to win against teams like Belarus, which we "like". Let's see how useful such meetings will be in official games. I hope that we can get the most out of these meetings, show good football performance to our people and make them smile. All our desires are directed exclusively in this direction. Of course, when you succeed, you make history, and this is what we strive for. We will do our best.

**- You scored one of the goals in the 2022 UEFA Nations League match in Baku, where we beat the Belarusian team with a score of 2:0. How do you remember this match?**

- I remember this match well. I was a little nervous and unhappy, because I was left out from the first minutes. From an ethical point of view, it is normal for a football player to be unhappy, but not to show disrespect. But later I went on the field, scored a goal and gave a fruitful pass. The goal I scored was great. I hope I can score more goals like this for the national team. Until that moment, we had played 5 matches without goals and wins. After the match with Belarus, we moved up in the rankings and won 5 victories in a row.

**- This year we will be playing in the qualifying round of the 2026 World Cup. Our two opponents will be Ukraine and Iceland, and the third one will be the winner of the quarter-final match of the League of Nations between France and Croatia. What can we expect from this group?**

- The strength of the opponents is known. There is no point in dreaming in front of such teams. We just need to prepare well and go out on the field to win. In football, there are victories and defeats. But sometimes it is also important how exactly you lose. It happens that you fight with all your might, play well, but in the end you lose. In some ways, this can be forgiven. Our people's understanding of football is improving every day. For example, despite the defeat to Slovakia, positive comments were written after the match. We must analyze our opponents and prepare well for each of them. The difference in quality will also speak for itself. I think there will be matches that will cause a sensation. You need to believe in this every time you play and correctly follow the instructions of the head coach. If we can do this, we can hope for a successful result.









# YEQOR BOQOMOLSKİ

## "Komandalarımız bərabər gücdədirlər"

**Hazırda Misli Premyer Liqasında iki belaruslu futbolçu çıxış edir ki, onlardan biri "Neftçi"nin hücumçusu Yeqor Boqomolskidir. 24 yaşlı forvard hətta 2022-ci ildə Belarus millisinin heyətində 6 oyunda iştirak edib. O, UEFA Millətlər Liqasının 2022/2023 mövsümündə keçirilən Azərbaycan – Belarus (2:0) qarşılaşmasının da iştirakçılarından olub.**

**Yeqor Boqomolski qarşıdakı oyunla bağlı AFFA-nın mətbuat xidmətinə müsahibə verib.**

**- Azərbaycan və Belarus milli komandaları arasında yoldaşlıq görüşünün keçiriləcəyi barədə məlumatı eşidəndə hansı hissləri keçirdiniz?**

- Belarus və Azərbaycan millilәri arasında yoldaşlıq oyununun olacağını öyrəndikdə sevindim. Çünki hər iki komandada çoxlu tanışlarım var. Həmin oyunu izləmək maraqlı olacaq.

**- Minsk "Dinamo"su bu mövsüm UEFA Konfrans Liqasındakı ev oyunlarını Sumqayıtda keçirdi. Bu amil Belarus yığmasına kömək edə bilərmi?**

- Sizinlə razıyam. Millimizdə "Dinamo"dan çoxlu futbolçular olur. Onlar artıq Azərbaycanı tanıyırlar. Yəqin ki, bu, komandaya nisbətən kömək edəcək.

**- Artıq 3 ilə yaxındır ki, Azərbaycandasınız. Oyunöncəsi millidəki komanda yoldaşlarınıza hansısa məsləhətləriniz olacaq?**

- Yığmada kifayət qədər təcrübəli futbolçular var. Əlbəttə ki, onlara hansısa kömək lazım olsa, bunu edəcəyəm.

**- Bir hücumçu olaraq Azərbaycan millisində ən çox çəkindiyiniz müdafiəçi kimdir?**

- Elvin Cəfərquliyev və Bəhlul Mustafazadəni xüsusi vurğulamaq istərdim.

**- Sizcə, Azərbaycan millisinin üstün və zəif cəhətləri nələrdir?**

- Sizin texniki cəhətdən yaxşı futbolçulardan qurulmuş kifayət qədər güclü milliniz var.

**- Belarus millisinə 2023-cü ildən Karlos Alos baş məşqçilik edir. İspaniyalı mütəxəssis komandada nələrisə dəyişə bilib?**

- Komandamızın nəticələri yaxşılaşıb. Təbii ki, buna görə baş məşqçi də tərifə layiqdir.

**- Həm Belarus, həm də Azərbaycan millisi DÇ-2026-nın seçmə mərhələsinə hazırlaşır. Yoldaşlıq oyununun seçmə mərhələyə hazırlıq zamanı nə kimi faydaları olacaq?**

- Komandalarımız təxminən bərabər gücdədirlər. Ona görə də bu oyun hər iki millinin seçmə mərhələyə hazırlığına xeyir verəcək.



## ABOUT THE STADIUM

# STADİON HAQQINDA

**AZE** Belarus yığması ilə oyun millimizin “Bank Respublika Arena”da ilk matçı olacaq. Bu stadion 2019-cu ilə qədər “Əlincə Arena” adlanıb. Masazır qəsəbəsində yerləşən stadionun açılış mərasimi 3 oktyabr 2014-cü il tarixində baş tutub. “Sabah” klubunun ev oyunlarını keçirdiyi “Bank Respublika Arena” 9000 tamaşaçı tutumuna malikdir. Qəsəbə komandası həm 2023/2024, həm də 2024/2025-ci illər mövsümündə UEFA Konfrans Liqasında rəqiblərini bu arenada qəbul edib. Azərbaycan – Belarus görüşü isə burada milli səviyyəsində ilk qarşılaşma olacaq.

**ENG** The match against Belarus will be the first match of Azerbaijan A-team at Bank Respublika Arena. This stadium was called Alinja Arena until 2019. The opening ceremony of the stadium in Masazir settlement took place on October 3, 2014. Bank Respublika Arena, where the FC Sabah plays home matches, has a capacity of 9,000 spectators. The club hosted the opponents within the UEFA Conference League in both the seasons 2023/2024 and 2024/2025 at the stadium. The match Azerbaijan vs Belarus will be the first match of the national team at this at this venue.



**HAKİM TƏYİNATI**

**Baş hakim:** Aleko Aptsiauri (Gürcüstan)
**Baş hakimin köməkçiləri:** Davit Axvlediani (Gürcüstan), Davit Qabisonia (Gürcüstan)
**Dördüncü hakim:** Tural Qurbanov (Azərbaycan)

**Referee Appointments:**

**1st Assistant:** Aleko Aptsiauri - (Georgia)
**2nd Assistant:** Davit Akhvlediani - (Georgia)
Davit Gabisonia - (Georgia)
**4-th official:** Tural Qurbanov (Azerbaijan)



XIRDALAN 0.0
AFFA
MİLLİ KOMANDANIN ALKOQOLSUZ TƏRƏFDAŞI




0.0% ALKOQOL
100% AZƏRBAYCAN İSTEHSALI

ALKOQOL: 0.0%. AQTA, QEYDİYYAT № / TARİXİ: 1808110029 / 11.08.2018.

AFFA

АБФФ

Azerbaijan national team

AFFA



# AZƏRBAYCAN MİLLİ KOMANDASI



AZERBAIJAN
AIRLINES

AQUAVITA

# FERNANDU SANTUŞ

**2014-cü ildə Yunanıstan millisindən ayrılaraq Portuqaliya yığmasına rəhbərlik etməyə başlayan Santuş ölkəsinin komandasına tarixi uğurlar qazandırıb.**

Fernandu Santuş 12 iyun 2024-cü il tarixində Azərbaycan milli komandasının baş məşqçisi təyin olunub. Portuqaliyalı dünyanın məşhur mütəxəssisləri arasında göstərilir. 14 illik peşəkar futbolçu karyerasının böyük hissəsini "Eştoril"ə həsr edən sabiq sol cinah müdafiəçisi 1988-ci ildə məşqçiliyə başlayıb. Ölkəsində "üç böyüklər" – "Porto", "Benfika" və "Sportinq"i çalışdırıb, birinci ilə bir dəfə ölkə çempionu olub, iki dəfə ölkə kubokunu, iki dəfə isə Superkubokunu qazanıb.

2010-cu ildə Yunanıstan millisinin "sükanı arxası"na keçib, komandanı AÇ-2012 və DÇ-2014-ün final mərhələsinə daşıyıb. Komanda Avropa çempionatında 1/4, dünya çempionatında isə 1/8 final mərhələsinə qədər irəliləyib.

2014-cü ildə Yunanıstan millisindən ayrılaraq Portuqaliya yığmasına rəhbərlik etməyə başlayan Santuş ölkəsinin komandasına tarixi uğurlar qazandırıb. Kriştianu Ronaldunun kapitanı olduğu kollektiv Santuşun rəhbərliyi altında 2016-cı ildə Avropa çempionatının, 2019-cu ildə isə UEFA Millətlər Liqasının qalibi olub. 2022-ci ildə sevimli komandasından ayrıldıqdan sonra qısa müddət Polşa yığmasını və Türkiyənin "Beşiktaş" klubunu çalışdırıb.

Millimiz 69 yaşlı mütəxəssisin rəhbərliyi altında UEFA Millətlər Liqasının qrup mərhələsində İsveç (1:3, 0:6), Slovakiya (0:2, 1:3) və Estoniyaya (1:3, 0:0) qarşı 6 oyun keçirib.





# FERNANDO SANTOS

Fernando Santos was appointed the head coach of the Azerbaijani national team on June 12, 2024. The Portuguese specialist is listed among the famous experts of the world. The former left wing defender, who spent most of his 14-year professional football career with "Eshtoril", started coaching in 1988. He coached the "big three" in his country - "Porto", "Benfica" and "Sporting", in the first year, he became the national champion once, won the national cup twice, and the Supercup twice.



In 2010, he took charge of the Greek national team and led the team to the finals of the 2012 European Championship and the 2014 European Championship. The team reached the 1/4 final stage of the European Championship and the 1/8 final stage of the World Championship.

Santos, who left the Greek national team in 2014 to take over the Portuguese national team, has brought historic success to his country. The team, led by Cristiano Ronaldo and coached by Santos, won the European Championship in 2016 and the UEFA Nations League in 2019. After leaving his favorite team in 2022, he spent some time coaching the Polish national team and the Turkish club "Besiktas". Under the leadership of the 69-year old specialist, Azerbaijan played 6 games against Sweden (1:3, 0:6), Slovakia (0:2, 1:3) and Estonia (1:3, 0:0) in the group stage of the UEFA Nations League.



Santos, who left the Greek national team in 2014 to take over the

**PORTUGUESE NATIONAL TEAM**

has brought historic success to his country.

At this time, the team captain was

**CRISTIANO RONALDO.**

# AZƏRBAYCANDA FUTBOLUN YARANDIĞI İL

# 1905

## THE YEAR FOOTBALL WAS ESTABLISHED IN AZERBAIJAN



*1998 FIFA dünya çempionatı (seçmə mərhələ)*

*FIFA World Cup 1998 (qualifying round)*

Azərbaycanda ilk futbol komandaları 1905-ci ildə yaradılıb. Həmin dövrdə ingilislərin neft yataqlarına meyl etmələri futbolun inkişafına töhfəsini verib. Futbolun vətəni İngiltərə olduğundan, onların Bakıya gəlmələri yerli əhali arasında da bu idman növünü populyarlaşdırıb. Bakıda ilk futbol komandasının da adı "Britaniya klubu" olub. Bakının iri neft şirkətlərini təmsil edən komandalar arasında 1911-ci ildə Bakıda keçirilən birinci rəsmi çempionatı məhz "Britaniya klubu" qazanıb.

Adıçəkilən komanda ilk beynəlxalq oyununu 1912-ci ildə Gürcüstanda yerli "Sokol" kollektivinə qarşı keçirib və 4:2 hesablı qələbə qazanıb. 1914-cü ildə Bakı Futbol İttifaqı (BFİ) yaransa da, bu təşkilatın ömrü çox sürməyib. 20 komandanı özündə birləşdirən BFİ 1917-ci ildə süquta uğrayıb. 1920-ci ildə futbol yenidən Bakıya qayıdıb və ilk şəhər birinciliyinin qalibi "Sokol" olub. 1926-cı ildə Gürcüstanda təşkil edilən ilk Zaqafqaziya çempionatının qalibi Azərbaycan təmsilçisi "Proqress" olub.

The first football teams in Azerbaijan were created in 1905. At that time, the craving of the English people for oil fields contributed to the development of football. Since England is the birthplace of football, their arrival in Baku made this sport popular among the local population. The first football team in Baku was called the "British Club". Among the teams representing the largest oil companies in Baku, the first official championship, held in Baku in 1911, was won by the "British Club". This team played its first international game in 1912 in Georgia against the local team "Sokol" and won with a score of 4:2..

Although the Baku Football Union (BFU) was founded in 1914, the life of this organization did not last long. The BFU, which included 20 teams, disbanded in 1917. In 1920, football returned to Baku and the first city championship was won by "Sokol". The winner of the first Transcaucasian championship, organized in Georgia in 1926, was a representative of the Azerbaijani "Progress".

AFFA









# AZƏRBAYCAN MİLLİSİNİN REKORDÇULARI

Record holders of the Azerbaijan national team

Azərbaycan millisinin ilk beynəlxalq oyunu 1992-ci il sentyabrın 17-də Gürcüstan seçməsinə qarşı olub. Gürcaanidə keçirilən görüşdə ev sahibləri 6:3 hesablı qələbə qazanıblar. Komandamızın ən böyükhesablı qələbəsi 4 top fərqi ilə olub. Millimiz 1999-cu ildə Lixtenşteynə 4:0, 2017-ci ildə isə San Marinoya 5:1 hesabı ilə qalib gəlib. Komandamız ən böyükhesablı məğlubiyyətini 1995-ci ildə səfərdə Fransadan alıb - 0:10.

The first international game of the Azerbaijani national team took place on September 17, 1992 against Georgia. In the match held in Georgia, the home team won with a score of 6-3. Our team's biggest victory was with a difference of 4 goals. Our team beat Liechtenstein 4-0 in 1999 and San Marino 5-1 in 2017. Our team suffered its biggest defeat in 1995 away from France – 0-10.

Azərbaycan - San Marino, 4 Sentyabr 2017 5-1



## AZƏRBAYCAN MİLLİSİNDƏ ƏN ÇOX OYUN KEÇİRƏN FUTBOLÇULAR / PLAYERS WHO PLAYED THE MOST GAMES IN THE AZERBAIJAN NATIONAL TEAM



**RƏŞAD SADIQOV**
111 oyun/games
2001-2017



**MAKSİM MEDVEDEV**
81 oyun/games
2009-2022



**ASLAN KƏRİMOV**
80 oyun/games
1994-2008



**KAMRAN AĞAYEV**
79 oyun/games
2008-2018



**QARA QARAYEV**
77 oyun/games
2013-2022



**BƏDAVİ HÜSEYNOV**
77 oyun/games
2012-...

## ƏN ÇOX QOL VURAN 5 FUTBOLÇU / 5 TOP SCORERS



**QURBAN QURBANOV**
14 qol/goals
1992-2005



**EMİN MAHMUDOV**
14 qol/goals
2016-...



**RAMİL ŞEYDAYEV**
10 qol/goals
2016-...



**VAQİF CAVADOV**
9 qol/goals
2006-2014



**DMİTRİ NAZAROV**
8 qol/goals
2014-2022

DANILOV
BAKU

# AZƏRBAYCAN MİLLİSİNİN BEYNƏLXALQ YARIŞLARDA QƏLƏBƏLƏRİ

## SUCCESSES OF THE AZERBAIJAN NATIONAL TEAM DURING THE INTERNATIONAL COMPETITIONS

AFFA

# Millinin beynəlxalq oyunlarda qələbələri

Dünya və Avropa çempionatlarının seçmə mərhələlərində, UEFA Millətlər Liqasında qazanılan qələbələr

# Victories of the national team in international matches

The victories achieved in the qualifying rounds of World and European championships, in the UEFA National League

**31.08.1996. DÇ-1998**
Azərbaycan - İsveçrə - 1:0 (Bakı)

**05.06.1999. AÇ-2000**
Azərbaycan - Lixtenşteyn - 4:0 (Bakı)

**05.06.2001. DÇ-2002**
Azərbaycan - Slovakiya - 2:0 (Bakı)

**11.06.2003. AÇ-2004**
Azərbaycan - Serbiya və Monteneqro - 2:1 (Bakı)

**28.03.2007. AÇ-2008**
Azərbaycan - Finlandiya - 1:0 (Bakı)

**10.10.2009. DÇ-2010**
Lixtenşteyn - Azərbaycan - 0:2 (Vaduts)

**12.10.2010. AÇ-2012**
Azərbaycan - Türkiyə - 1:0 (Bakı)

**06.09.2011. AÇ-2012**
Azərbaycan - Qazaxıstan - 3:2 (Bakı)

**11.10.2013. DÇ-2014**
Azərbaycan - Şimali İrlandiya - 2:0 (Bakı)

**28.03.2015. AÇ-2016**
Azərbaycan - Malta - 2:0 (Bakı)

**04.09.2016. DÇ-2018**
San Marino - Azərbaycan - 0:1 (Serravalle)

**08.09.2016. DÇ-2018**
Azərbaycan - Norveç - 1:0 (Bakı)

**04.09.2017. DÇ-2018**
Azərbaycan - San Marino - 5:1 (Bakı)

**11.10.2018. ML-2019**
Farer adaları - Azərbaycan - 0:3 (Torshavn)

**17.11.2018. ML-2019**
Azərbaycan - Farer adaları - 2:0 (Bakı)

**08.09.2020. ML-2021**
Kipr - Azərbaycan - 0:1 (Nikosiya)

**13.06.2022. ML-2023**
Azərbaycan - Belarus - 2:0 (Bakı)

**22.09.2022. ML-2023**
Slovakiya – Azərbaycan – 1:2 (Trnova)

**25.09.2022. ML-2023**
Azərbaycan – Qazaxıstan – 3:0 (Bakı)

**13.10.2023. AÇ-2024**
Estoniya – Azərbaycan – 0:2 (Tallin)

**16.11.2023. AÇ-2024**
Azərbaycan – İsveç – 3:0 (Bakı)


2-0 Azərbaycan - Belarus, Millətlər Liqası, 13 İyun 2022


Azərbaycan - İsveç, Avropa Çempionatı, 16 Noyabr 2023 3-0


OYUN PROQRAMI MATCHDAY PROGRAMME
AFFA
48

# AZƏRBAYCAN MİLLİSİNİN HEYƏTİ



## QAPIÇILAR/GOALKEEPERS
Rza Cəfərov
Şahrudin Məhəmmədəliyev
Aydın Bayramov

## MÜDAFİƏÇİLƏR/DEFENDERS
Amin Seydiyev
Mert Çelik
Bəhlul Mustafazadə
Bədavi Hüseynov
Rahil Məmmədov
Zamiq Əliyev
Rəhman Daşdəmirov
Elvin Cəfərquliyev

## YARIMMÜDAFİƏÇİLƏR/MIDFIELDERS
Aleksey İsayev
Coşqun Diniyev
Elvin Camalov
Şahin Şahniyarov
İsmayıl İbrahimli
Səbuhi Abdullazadə
Ozan Can Kökçü
Toral Bayramov

## HÜCUMÇULAR/FORWARDS
Nəriman Axundzadə
Xəyal Əliyev
Renat Dadaşov
Ağadadaş Salyanski
Mahir Emreli
Musa Qurbanlı

**Azerbaijan national team squad**



SOCAR

# MİLLİNİN SON 5 YOLDAŞLIQ OYUNU

## LAST 5 FRIENDLY MATCHES OF THE NATIONAL TEAM

| | | | | |
|---|---|---|---|---|
| 12.09.2023 | Yoldaşlıq görüşü | Azərbaycan – İordaniya | 2 : 1 | Bakı, Azərbaycan |
| 22.03.2024 | Yoldaşlıq görüşü | Azərbaycan – Monqolustan | 1 : 0 | Bakı, Azərbaycan |
| 25.03.2024 | Yoldaşlıq görüşü | Azərbaycan – Bolqarıstan | 1 : 1 | Bakı, Azərbaycan |
| 07.06.2024 | Yoldaşlıq görüşü | Albaniya - Azərbaycan | 3 : 1 | Sombatxey, Macarıstan |
| 11.06.2024 | Yoldaşlıq görüşü | Azərbaycan - Qazaxıstan | 3 : 2 | Sombatxey, Macarıstan |

# MİLLİNİN SON 5 RƏSMİ OYUNU

## LAST 5 OFFICIAL MATCHES OF THE NATIONAL TEAM

| | | | | |
|---|---|---|---|---|
| 08.09.2024 | UEFA Millətlər Liqası | Slovakiya – Azərbaycan | 2 : 0 | Koşitse, Slovakiya |
| 11.10.2024 | UEFA Millətlər Liqası | Estoniya – Azərbaycan | 3:1 | Tallin, Estoniya |
| 14.10.2024 | UEFA Millətlər Liqası | Azərbaycan – Slovakiya | 1:3 | Bakı, Azərbaycan |
| 16.11.2024 | UEFA Millətlər Liqası | Azərbaycan – Estoniya | 0:0 | Qəbələ, Azərbaycan |
| 19.11.2024 | UEFA Millətlər Liqası | İsveç – Azərbaycan | 6:0 | Solna, İsveç |

## MİLLİNİN FIFA REYTİNQİ

FIFA RANKING OF THE NATIONA TEAM

**HAZIRKI MÖVQEYİ:** *117-Cİ YER*
**ƏN YAXŞI MÖVQEYİ:** *73-CÜ YER (İYUL 2014-CÜ İL)*
**ƏN ZƏİF MÖVQEYİ:** *170-Cİ YER (İYUN 1994-CÜ İL)*

- - - - - - - - - - - - - - - - - -

**CURRENT POSITION:** *117TH PLACE*
**BEST POSITION:** *73RD PLACE (JULY 2014)*
**LOWEST POSITION:** *170TH (JUNE 1994)*

FIFA

BONA DEA

BONA DEA

BONA DEA

# MÜNDƏRİCAT CONTENT


| | | |
|---|---|---|
| *BELARUS MİLLİ KOMANDASI* | 4 | *BELARUS NATIONAL TEAM* |
| MİLLİNİN BAŞ MƏŞQÇİSİ | 6 | ABOUT THE HEAD COACH |
| MİLLİNİN HEYƏTİ | 8 | ABOUT THE SQUAD |
| BELARUSDA FUTBOLUN YARANDIĞI İL | 10 | THE YEAR FOOTBALL WAS ESTABLISHED IN BELARUS |
| MİLLİNİN REKORDÇULARI | 12 | THE RECORD HOLDERS OF THE NATIONAL TEAM |
| MİLLİNİN BEYNƏLXALQ YARIŞLARDA UĞURLARI | 15 | NATIONAL TEAM'S SUCCESSES IN INTERNATIONAL COMPETITIONS |
| MİLLİNİN SON 5 YOLDAŞLIQ OYUNU | 18 | LAST 5 FRIENDLY MATCHES OF THE NATIONAL TEAM |
| MİLLİNİN FIFA REYTİNQİ | 20 | FIFA RANKING OF THE NATIONAL TEAM |
| *ARALARINDAKI OYUNLAR HAQQINDA MƏLUMAT* | 23 | *INFORMATION ABOUT THE MATCHES HELD BETWEEN THE TEAM* |
| *MARAQLI FAKT* | 27 | *INTERESTING FACT* |
| *MAHİR EMRELİNİN MÜSAHİBƏSİ* | 28 | *INTERVIEW OF MAHIR EMRELİ* |
| *YEQOR BOQOMOLSKİNİN MÜSAHİBƏSİ* | 29 | *INTERVIEW OF EGOR BOGOMOLSKIY* |
| *AZƏRBAYCAN MİLLİ KOMANDASI* | 38 | *AZERBAIJAN NATIONAL TEAM* |
| MİLLİNİN BAŞ MƏŞQÇİSİ | 42 | ABOUT THE HEAD COACH |
| AZƏRBAYCANDA FUTBOLUN YARANDIĞI İL | 44 | THE YEAR FOOTBALL WAS ESTABLISHED IN AZERBAIJAN |
| MİLLİNİN REKORDÇULARI | 46 | THE RECORD HOLDERS OF THE NATIONAL TEAM |
| MİLLİNİN BEYNƏLXALQ YARIŞLARDA QƏLƏBƏLƏRİ | 49 | NATIONAL TEAM'S SUCCESSES IN INTERNATIONAL COMPETITIONS |
| MİLLİNİN HEYƏTİ | 52 | ABOUT THE SQUAD |
| MİLLİNİN SON 5 YOLDAŞLIQ OYUNU Və FIFA REYTİNQİ | 54 | LAST 5 FRIENDLY MATCHES OF THE NATIONAL TEAM |


AFFA